# Dünya Azərbaycanın sabitlik adası olduğunu etiraf edir

***Müdrik dövlət xadimi, ulu öndər Heydər Əliyev Azərbaycanı dünyanın bütün ölkələri üçün açıq elan edəndə bəzi üzdəniraq siyasətçilər ağız büzürdülər ki, bu siyasət xalqımızın maraqlarına cavab vermir. Kimin uzaqgörən, kimin diletant olduğunu zaman göstərdi. 1993-cü ilin yayından bəri elə bir il olmadı ki, ölkəmiz hansısa siyasi-diplomatik uğura imza atmasın. 2003-cü ilin payızından sonra isə gənc müstəqil Azərbaycan dövləti dünyanın əsas siyasi aktorlarından birinə çevrilmək istiqamətində ardıcıl və qətiyyətli addımlar atdı.***



Son zamanlar dünya siyasətçiləri və politoloqlar Azərbaycanın qazandığı nailiyyətləri yüksək qiymətləndirir və bu məqsədlə müəyyən obrazlardan, “qanadlı ifadələrdən” istifadə edirlər. Kimsə Azərbaycanı “Qaynar bölgədə sabitlik adası”, kimsə “Regional problemlərin əhatəsində uğurla inkişaf edən ölkə”, başqa birisi isə “Burulğanları dəf etmiş gəmi” adlandırır.

***(ardı 3-cü səhifədə)***

# Dünya Azərbaycanın sabitlik adası olduğunu etiraf edir

***Bizim həm güclü iqtisadi imkanlarımız var, həm çox güclü siyasi sistem mövcuddur və həm də Azərbaycanda dövlətçilik prinsipləri çox möhkəmdir. Yəni hətta bizim ərazimizin, hüdudlarımızın yaxınlığında yaşanan böhranlı vəziyyət bizə təsir etmədi. Bu, bir daha onu göstərir ki, apardığımız siyasət düzgün siyasətdir və biz yalnız və yalnız daxili resurslara istinad edərək, ölkəmizi inkişaf etdiririk.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

*(əvvəli 1-ci səhifədə)*

Yeri gəlmişkən, 28 May – Respublika Günü münasibətilə dövlət başçımızın ünvanına gələn təbrik məktublarında bu qəbildən olan qiymətləndirmələrə bu il də rast gəldik. Çünki beynəlxalq ictimaiyyət Prezident İlham Əliyevi “sözünün üstündə duran lider”, “vədinə əməl edən dövlət başçısı” kimi tanıyır.

Həmin məktublardan birində – İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanladığı 3 iyun 2022-ci il tarixli təbrik məktubunda oxuyuruq: “Ölkələrimiz xalqlarımız arasında sıx əlaqələrə əsaslanan tarixi tellərə malikdir. Azərbaycan sabitlik adasıdır və əsrlər boyu yəhudi xalqı üçün isti, qonaqpərvər və təhlükəsiz bir ev olmuşdur”.

Ekspertlər yazırlar ki, Azərbaycan dövləti bütün güc mərkəzləri ilə enerji, nəqliyyat-kommunikasiya sahəsində işləməklə, heç bir hərbi-siyasi bloka qoşulmamaqla öz ərazisində sabitliyi qoruyub-saxlamağa nail olmuşdur. Bildirilir ki, bizimlə eyni coğrafiyada yerləşməsinə baxmayaraq, bəzi ölkələrdə siyasi sabitlik və iqtisadi dayanıqlılıq elə şəkil alıb ki, bu məsələlər dövlət üçün, sözün həqiqi mənasında, problemə çevrilib. Azərbaycandakı vəziyyət isə dünya siyasətçilərinin təbirincə desək, xalqın arzuladığı, İlham Əliyevin istədiyi kimidir.

Çünki Azərbaycan öz daxili və xarici siyasətini daha fərqli şəkildə qurub. Burada sabitliyin öz şərtləri var. Bizdə ölkənin təbii resursları da mühüm rol oynayıb. Azərbaycan regionda marağı olan böyük güclərin istəyini nəzərə alaraq meqalayihələr vasitəsilə onların buradakı sabitliyin təminatçısı olmasına nail ola bilib.

Məlum olduğu kimi, Azərbaycan əvvəllər balanslı siyasət həyata keçirirdi. Lakin sonradan Prezident İlham Əliyev bəyan etdi ki, biz milli maraqlara üstünlük veririk. Ölkəmiz hansısa hərbi-siyasi bloklara qoşulmaqdan imtina edib. Birtərəfli siyasət həyata keçirməyimiz də müəyyən qədər sabitliyə təsir göstərir. Mütəxəssislərin fikrincə, Azərbaycan da Ukrayna, Gürcüstan kimi Avropa Birliyi, yaxud NATO üzvlüyünə iddia etsəydi, onda bizdə də sabitlik pozula bilərdi.

Prezident İlham Əliyev dəfələrlə xatırlatmışdır ki, biz–müsəlman Şərqində ilk demokratik dövlət yaratmış xalqın nümayəndələri olsaq da, Qərbdəki yüksək elmi-texniki tərəqqinin ölkəmizə gətirilməsində maraqlıyıq, ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya kimi çoxəsrlik dövlətçilik təcrübəsinə malik olan ölkələrlə istənilən əməkdaşlıq bizim ümumi inkişafımıza töhfə verə bilər və verir. Dövlət başçımız xatırladır ki, dünyəvilik bizim dövlətçiliyimizin fundamental sütunlarından biridir və Avropa İttifaqı ilə sıx əlaqələr Azərbaycanın gələcək dünyəvi inkişafına müsbət təsir göstərəcək.

Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev Qərb dövlətləri ilə münasibətlərin qurulması və inkişafı prosesində klassik diplomatiyadan əlavə özlərinin şəxsi münasibətlərindən də səmərəli istifadə ediblər. Onların əsas məqsədlərindən biri daim Qərblə yaxınlaşmaq olmuşdur. 1993-cü ilin sonlarından başlayaraq ulu öndər Heydər Əliyevin dövründə və 2003-cü ildən bəri Prezident İlham Əliyev dönəmində Azərbaycan tarazlıq siyasəti həyata keçirməkdədir.



Elə qarşı tərəf də daim bu düşüncədə olub. Yəni Qərb dövlətləri də Azərbaycanla əməkdaşlığa böyük önəm verdiklərini daim bəyan ediblər. Məsələn, Amerika Birləşmiş Ştatlarının sabiq Prezidenti Corc Buş bizim ulu öndərimiz haqqında demişdi: “Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır”.

Bu qəbildən olan faktlar və ifadələr kifayət qədərdir. Bütün bunları sadalayan ekspertlər həmin inam və etimadın səbəbini araşdırmağa cəhd edir və sualın cavabını tapırlar: Şərq və Qərbin aparıcı ölkələri ilə münasibətlərin tənzimlənməsi və əməkdaşlıq prinsipi ilə qarşılıqlı əlaqələrin qurulması Azərbaycan Respublikasının xarici siyasətinin əsas prioritetlərindən biridir. Beləliklə, Azərbaycanın xarici siyasətinin istiqamətlərindən biri Qərb dövlətləri, xüsusilə də Avropa İttifaqı ölkələri ilə münasibətlərin genişləndirilməsi olmuşdur. Avropa dünyanın siyasi-iqtisadi, humanitar-sosial sahələrdə ən inkişaf etmiş mərkəzlərindəndir.

Bu məqamda Azərbaycanın həm Şərqdə, həm də Qərbdə yüksək qiymətləndirilən layihələrindən birini yada salmaq zərurəti var. Belə ki, 2008-ci ilin 2–3 dekabr tarixində ölkəmizdə təşkil olunan Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransına Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq 10 İslam ölkəsi də dəvət edilmişdi. İslam dövlətlərinin iştirakı ilə mədəniyyət nazirlərinin konfransı yeni bir formata transformasiya olunmuşdu. Avropa və ona qonşu regionlardan 48 ölkənin, 8 beynəlxalq təşkilatın və bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının yüksək səviyyəli nümayəndələrinin iştirak etdiyi bu konfransda “Mədəniyyətlərarası dialoqunun təşviqinə dair Bakı Bəyannaməsi” qəbul edilmişdi.

Məhz həmin bəyannamə ilə sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan “Bakı prosesi”nin və bu prosesin inkişafına hədəflənmiş “Sənətçilər dialoq naminə” layihəsinin əsası qoyulmuşdu. “Bakı prosesi”nin davamlılığını təmin etmək məqsədilə 2009-cu il 13–15 oktyabr tarixində Bakıda keçirilmiş İslam ölkələrinin mədəniyyət nazirlərinin VI Konfransında Azərbaycanın təşəbbüsü ilə 10-dan çox Avropa dövləti də iştirak edirdi. Konfrans çərçivəsində iştirak edən Avropa Şurası dövlətləri ilə İslam Konfransı Təşkilatının üzvləri arasında mədəniyyətlərarası dialoqa dair birgə kommunike qəbul edilmişdi.

Sonda xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə bu il iyunun 16-da “Qlobal dünya nizamına təhdidlər” mövzusunda keçirilən IX Qlobal Bakı Forumu ölkəmizin sabitlik adası olduğunu növbəti dəfə sübut etmişdir. Prezident İlham Əliyev həmin tədbirdəki çıxışında dünyadakı münaqişələrin sülh yolu ilə həlli, ərzaq təhlükəsizliyinin təmin edilməsi, ədalətli dünya nizamının formalaşdırılmasının vacibliyini qeyd etmişdir. Dövlətimizin başçısının dünyadakı hadisə və proseslərə yanaşma tərzi, qlobal böhran və problemlərə yanaşma forması bir daha Azərbaycanın nə qədər sülhpərvər siyasət yürütdüyünü ortaya qoyurdu. Mütəxəssislərin fikrincə, Azərbaycan Prezidentinin bu mövqeyi, sadəcə ölkəmiz üçün deyil, bütün region və onun gələcək inkişafı üçün yol xəritəsi hesab edilə bilər. Hamı bu fikirdədir ki, ümumi inkişaf və tərəqqi üçün regionun bütün dövlətləri Azərbaycan Prezidentinin çağırışlarını dəstəkləməli, bu çağırışların daha geniş miqyasda reallaşmasına zəmin yaratmalıdır.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***